# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 306** **Bakı şəhəri, 6 sentyabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 5 yanvar tarixli 1 nömrəli, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə görə məsuliyyətə cəlb olunmuş şəxslərə qarşı preventiv tədbirlərin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2015-ci il 3 mart tarixli 54 nömrəli və "2016-2020-ci illər üçün İİV/QİÇS-lə mübarizə üzrə Tədbirlər Proqramı"nın təsdiq edilməsi haqqında" 2016-cı il 17 fevral tarixli 63 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İpoteka haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Dərman vasitələri haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Dövlət borcu haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 813-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 aprel tarixli 2091 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 5 yanvar tarixli 1 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 35; 2012, № 12, maddə 1370; 2017, № 4, maddə 620; 2022, № 8, maddə 974) ilə təsdiq edilmiş "Müharibə dövrünün ştatlarında nəzərdə tutulmuş hərbi vəzifələrdə hərbi xidmətkeçmə məqsədilə hərbi hissələrə təhkim olunmuş (xüsusi birləşmələrə təyin edilmiş) vətəndaşların səfərbərlik üzrə hərbi xidmətə çağırılması qaydası, habelə Azərbaycan Ordusunun, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin və xüsusi birləşmələrin mülki heyət vəzifələrində vətəndaşların işləmək üçün göndərilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.2-ci bənddə "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin;

1.2. 3.3-cü bənddə "Kütləvi informasiya vasitələrində" sözləri "Mediada" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 mart tarixli 54 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 3, maddə 323; 2018, № 2, maddə 342; 2019, № 3, maddə 517) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyə-sinə görə məsuliyyətə cəlb olunmuş şəxslərə qarşı preventiv tədbirlərin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1.5-ci yarımbənddə "kütləvi informasiya vasitələrinin və" sözləri "medianın, o cümlədən" sözləri ilə əvəz edilsin;

2.2. 4.2.8-ci və 4.5.5-ci yarımbəndlərdə ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media" sözü ilə əvəz edilsin;

2.3. 4.13.1-ci yarımbənddə "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 17 fevral tarixli 63 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2016, № 3, maddə 590) ilə təsdiq edilmiş "2016-2020-ci illər üçün İİV/QİÇS-lə mübarizə üzrə Tədbirlər Proqramı"nın həyata keçirilməsi üzrə Fəaliyyət Planı"nın 6.5.3-cü yarımbəndinin "Tədbirin adı" sütununda "Kütləvi informasiya vasitələri" sözləri "Media" sözü ilə, "İcraçılar" sütununda "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***